

# SAMİR NAZİM ELŞƏN!

Aida Eyvazlı Göytürk

# SAMİR NAZİM ELŞƏN!

Aida Eyvazlı Göytürk

Bakı - 2017

1905.az KİTABI
**Seriyanın ideya müəllifi və naşiri**
Elxan SÜLEYMANOV,
Şamaxının millət vəkili, Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının prezidenti

**Nəşrin məsləhətçisi**
Dəyanət MUSAYEV,
pedaqoji elmlər üzrə fəlsəfə doktoru

**Seriyanın tərtibçisi**
Fuad BABAYEV,
siyasi elmlər üzrə fəlsəfə doktoru, əməkdar jurnalist

Aida Eyvazlı Göytürkün bu kitabında 2016-cı ilin aprel ayında Ermənistanın dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribatını layiqincə cavablandırarkən, uğurlu əks-hücum əməliyyatı zamanı qəhrəmancasına həlak olmuş hərbçilərimizdən Samir Kaçayev, Nazim Zəkərəyev və Elşən Səmədov haqqında yazdığı yazılar yer alıb.
Ötən il modern.az saytında dərc edilmiş 3 yazını kiçik sözardılar tamamlayır.
Kitaba həmçinin müəllifin 1905.az portalına verdiyi müsahibə daxil edilib.
Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Kitabın cildinin dizaynında azeridefence.com saytında dərc edilmiş fotoşəkildən istifadə olunub.

ISBN: 978 9952-763-15-7

© www.1905.az 2017
© Aida Eyvazlı Göytürk 2017

# Dəyərli Oxucu!

"1905.az KİTABI" seriyasından növbəti kitab qarşınızdadır.

Bu kitab ötən ilin aprel döyüşləri zamanı həlak olmuş üç qəhrəman oğlumuzdan bəhs edir.

Jurnalist Aida xanımın qələmə aldığı üç yaddaqalan yazını birləşdirən "SAMİR! NAZİM!ELŞƏN!" kitabı üç şamaxılı gəncin həyat yolundan danışır və bu gənclərin kiçik, mənalı, unudulması mümkün olmayan həyat dastanları çox təsirlidir.

Təsirlidir bu dastanlar.

Bu yazıları oxuduqca İnsan kədərlənir, düşünür, götür-qoy edir.

Bu həyat hekayələri insanı çox uzaqlara aparır.

Biz istər-istəməz mühüm nəticələr çıxarırıq.

Biz bu nəticələri ona görə çıxarmalıyıq ki, atəşkəs sazişi imzalanan 1994-cü ildə dünyaya gəlmiş Samir Kaçayevin və ondan 3 yaş kiçik olan Nazim Zəkərəyev, Elşən Səmədovun şəhidlik zirvəsinə ucaldıqları aprel döyüşlərindən ruhlana biləK.

Bəli, biz itkilər vermişik. Amma biz qələbə də əldə etmişik.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ötən ilin noyabrında Füzuli rayonu ərazisində ön xətdə yerləşən komanda idarəetmə məntəqəsində əməliyyat şəraiti ilə tanış olandan sonra hərbçilər qarşısında çıxışında demişdi:

“Bu ilin aprel ayında Ermənistan dövlətimizə, xalqımıza qarşı növbəti silahlı təxribat törətmişdir. Qəhrəman Azərbaycan Ordusu - xalqımızın əsgər və zabitləri bu təxribata layiqli cavab vermişdir. Uğurlu əks-hücum əməliyyatı keçirərək düşmənə sarsıdıcı zərbələr vurmuşdur və Azərbaycanın işğal altında olan torpaqlarının bir hissəsi azad edilmişdir”

Qoy Samir kimi, Nazim kimi, Elşən kimi, onlarla, yüzlərlə, minlərlə şəhidlərimiz rahat uyusunlar məzarlarında.

Biz torpaqlarımızı Ermənistanın işğalından azad edə biləcəyik.

Samirin, Nazimin, Elşənin və digər şəhid övladlarımızın şəhid olduqları döyüşlər də bir daha sübut etdi ki, biz döyüşməyi də bacarırıq, qələbə çalmağı da.

Qələbə bizimlə olacaq və bu qələbə haqqında daha böyük kitablar yazılacaq.

Mən buna inanıram.

*Elxan Süleymanov,*
*Şamaxının millət vəkili*

## Heykəltəraş şəhidin anası: “Sevdiyi qızı da tanımadım ki, bir ona baxım”

“Şamaxı yollardan başlayır...” - məşhur yazıçımız Əzizə xanım Cəfərzadənin əsərlərinin birinin ilk cümləsidir bu. Neçə yollar ayrıldı səndən, neçə müharibələrə, qovğalara, toylara, mərəkələrə şahid oldun Vətən torpağı... Tarixini hər zaman qanla yazdıq. Uğrunda nə canlar getdi, səni SƏN, səni VƏTƏN, QİBLƏGAH etmək üçün.

... Düz 25 ildir ki, mənfur niyyətli vəhşilərin tapdaqları, nəfəsi ilə çirklənmiş torpaqlarımızı azad etmək istəyirik. Lakin... Nə qədər düşmənin var imiş, həm daxildən, həm xaricdən... Müqəddəs amalımıza, müqəddəs məqsədimizə çatmaq üçün yolumuzu nə qədər kəsiblər. Lakin bir gün dayanmadıq, durmadıq - 25 il düşmənlə öz torpaqlarımızda olan ərazilərimizin keşiyini çəkəndə belə, uğrunda canlar verib, qanlar axıtdıq. Dəfələrlə həmlə edib, geri aldığımız mövqelərimizi də özümüzə peşiman etdilər. Aldıq-qaytardıq. Dedilər ki, dünya qaydalarına uyğun deyil.Atəşkəs rejimində zəbt olunmuş torpaqları geri almaq olmaz! Doğru olduğumuzu da sübut edə bilmədik...

Dözdük, balalarımızı, böyüklərimizi dünyanın qaydasız müharibə oyunlarına qurban verə-verə dözdük... Gözlədik,

səbr etdik ki, bir gün gələcək...

... Və şükür böyük yaradana ki, o gün gəldi... Azərbaycan adlı Vətənin şanlı oğulları, yenə silahlarını işə saldı. Qeyrət dəmi, qeyrət məqamı idi. Göydə Tanrı da bu dəfə bizim tərəfimizdən dönə bilmədi. Elə bil ki, daha haqqımızı HAQQ olan eşitmişdi. 2 aprel gecəsi 2016-cı il əsgərlərimiz, 1994-cü ildə elan olunmuş atəşkəs rejiminin ermənilər tərəfindən yenidən pozulmasından istifadə edərək, hücuma keçdilər. Tərtərdəki hərbi mövqelərimizdən başlanan hərbi hücum öz nəticəsini verdi. Bütün bu təfərrüatlar haqda sonralar daha çox yazacağıq.

İndi isə... Vətəni qanları, canları ilə xilas edən , qəhrəman oğullarımızın qısa, lakin şərəfli həyat yollarına nəzər salacağıq.

**Heykələ dönən ömür**

Şəhid Samir Kaçayev, 22 yaşında, Rəssamlıq Akademiyasının magistri.

Müharibə başlayandan bir az sonra 1994-cü ilin mart ayının 6-da dünyaya gəlmişdi. Traktorçu-mexanizator işləyən İzayəddinin (el içində Ziyad deyə çağırırlar) evinin, ocağının işığı artmışdı. Şamaxının uca dağlar başında yerləşən Çuxuryurd kəndindəki, balaca koması ona atasından qalmışdı. Qazandığı az əmək haqqına qane olan bu ailəni

məhəllədə, kənddə hamı sevir, hamı hörmət edirdi. Nə bir səs-küyləri olar, nə də kimsənin toyuğuna daş atmazdılar. Samir adlandırdıqları ilk oğul payından sonra, Tanrı onlara bir qız da verdi. Səbinə dünyaya gəldi. Kasıb komanın işığı bir az da çoxaldı. Əslində onların ətrafında yerləşən evlərin hamısı əvvəlcə belə balaca damlardan ibarət idi. Səliqəli ev, yarım metrlik taxta hasar... Heç kim bir-birindən fərqlənmirdi. Çuxuryurddakı hündür hasarlar insanlar, münasibətlər dəyişəndən sonra meydana gəldi. O hasarlar alçaq olanda uşaqlar da balaca idi. Hamı bir-birinin həyətini görür, bir evin işığı o biri evə düşürdü. Balaca Samir də məhəllə uşaqları ilə özü düzəltdiyi taxta avtomatıyla "dava-dava" oynayar, "erməni" öldürərdi. Daha çox qalib olmağı xoşlayırdı. Bəzən bu "dava-dava" oyunları evlərinin arxasındakı güllü-çiçəkli dağ döşündə də davam edirdi. "Dava"dan zəfər çalıb qayıdanda isə, dağ yamaclarından dərdiyi çiçəklərdən dəstə tutub anası Əminəyə və bacısı Səbinəyə gətirirdi. Günlərin bir günü atası Ziyad ona bir qutu plastilin alıb gətirdi. Uşağın ən maraqlı günləri bundan sonra başladı. Ən əvvəl bir at fiquru düzəltdi. Sonra gözünə nə dəyirdisə, əlləri həmin gördüyünü yoğururdu. Beləcə böyüdü. Məktəbə getdi.

Məktəbdə də sevimli oldu. Yaxşı oxudu. Ata-anaya heç əziyyət vermədi. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq bölməsinə qəbul olundu. Xəbəri ata-ana-

sına belə çatdırmışdı: "Pulsuz bölümünə qəbul olundum". Sevinmişdi Samir. Çünki ailələrinin çətin dolanışığını bilirdi. Ali məktəbi bitirəndən sonra isə, ötən il magistr pilləsinə uğurla qəbul oldu. Yenə də pul ödəmədən. Sevincinin həddi-hüdudu yox idi. Artıq akademiyada imzası, işi ilə tanınırdı. Hətta ötən ilin, yəni 2015-ci ilin noyabr ayında Tolerant Azərbaycan Gənci Fondunun layihəsində heykəltəraşlıq üzrə II yerin qalibi də oldu. Əsgəri xidmətdə olsa da, nümunəvi çavuş olduğu üçün bu mükafatın təqdim olunma mərasiminə qatıldı. Qrup yoldaşları onu gördüklərinə çox şad idilər.Samir Kaçayev gələndə hər şey dəyişirdi, o bir başqa idi. Gəlişi ilə ətrafına yeni əhval-ruhiyyə bəxş edirdi. Gözəl aurası var idi. O əsgər gedəndən bəri qrupun 9 tələbəsi arasında elə bil ki, nə isə çatmırdı. Bu boşluğun yerini isə Samir haqqında söhbətlər, əhvalatlar tuturdu. Bir də ki, əsgər gedəndə yaradıcılıq studiyasında düzəltdiyi əsərlərini dostu Abdula və Zaminə əmanət etmişdi. Demişdi ki, göz-bəbəyiniz kimi qoruyun!...

... Aprelin 1-dən 2-nə keçən gecə Əminənin yerinə qor doldu. Yata bilmədi. Bir yandan dağların küləyi, vıyıltısı, soyuğu-sazağı işlədi canına. Şamaxıda da havalar heç isinmək bilmirdi. Bu il bahar da gecikirdi. Gah çiskin yağış yağır, gah da qar tökürdü . Nəfəsi daraldı, boğazı qurudu... Canına elə ağrılar doldu ki... Qızı Səbinə ilə həyat yoldaşı həkim çağırmaq istədilər. Razı olmadı. Havaya çıxdı ki, boğulmasın. An-

caq... nədirsə, ürəyi sakitləşmədi, sığmadı köksünə... Səhəri diri gözlü açdı... Günortaya yaxın, bir neçə qonşu gəlib, getdi, hal-əhval tutdular. Sonra dedilər ki, ay Əminə, oğlun sağ ayağının bacağından yaralanıb. Əminə dəliyə döndü. Əllərini saçlarına atıb, haray qopardı: "Düzünü deyin, mən səhərə qədər yatmamışam, oğluma nə olub?". Qonşular bir-birinə göz edib, yalandan qınadılar onu: "Əminə, yekə qızsan, haray-həşir salma, bir azdan Bakıya xəstəxanaya gətirərlər, gedərsən yanına...". Elə bil inanan kimi də oldu Əminə. Axşam qaranlığında isə, artıq balasını üçrəngli Azərbaycan bayrağına bürünmüş dəmir tabutun içərisində gətirdilər...

Torpaqlarımızın işğalı üçün müqəddəs müharibəmiz başlayandan Şamaxı onlarla şəhid verib. 22 yaşlı Samir Kaçayev Şamaxının daha bir şəhidi oldu. Onu yaxınlıqdakı Məlhəm kəndinin qəbiristanlığında dəfn etdilər. Çuxuryurdun düzləri, dağ ətəkləri keçən il bu vaxtı qırmızı lalələrə bürünmüşdü. Bu gün Samir dəfn olunanda, hələ də qar yağırdı. Lalələr şəhid qanlarından utanıb, közlü sinələrini açmadılar bu il. Yəqin, analar ağlayıb, qurtarandan sonra açacaq lalələr.

Respublikanın əməkdar artisti Elnarə Abdullayeva ilə Çuxuryurda çatanda Kaçayevlərin həyətlərində hüzr verməyə gələn qohum-əqraba, dost-tanış toplaşmışdı. Qadınlar və kişilər üçün qurulan çadır ayrı idi. Ehtiyatla anası Əminəyə yaxınlaşdım, boynunu qucaqladım, könlünü almaq istədim.

“Qürurlan ana”, dedim. “Oğlunun məqamı mübarək”. Üzünü Elnarəyə tutan şəhid anası yenə nalə çəkdi: “Ay Elnarə xanım, sən gərək mənm balamın toyuna gələydin, axı mən səni çox istəyirdim, mənim balam elə gözəl idi, çox gözəl idi balam...”.

- Əminə bacı, oğlunuzdan danışın... Analar hiss eləyir balasının əlinə bir tikan batanda da...

- Gecəni səhərə kimi yatmadım ki... Ötən il yuxumda gördüm ki, Samirin yanında üç böyük daş var. Daşların üstündə də bir bayraq. Mənə deyirlər ki, Samir yanvarın 28-də öləcək. Hövlnak yuxudan ayıldım, tez balama zəng vurdum. Dedi ana, salamatam, dərsdəyəm. Hər gün yadıma düşürdü. Düz bu ilin yanvar ayının 28-nə qədər o yuxu içərimi yedi. Yenə zəng vurdum. Danışdım. Ondan sonra, rahatlandım. Samirim bir qarışqanı da, tapdamazdı. Bəzən evi təmizləyəndə, qarışqaları basıb öldürərdik. Bir haray-həşir qoparırdı ki... Bir dəfə də dedi ki, onları da Allah yaradıb, öldürmə. Sənin balanı o qarışqa kimi öldürsələr, neylərsən... Güldüm... Belə idi Samir, bir gülü də incitməzdi. Ancaq çiçəkləri-gülləri, təbiəti çox sevirdi.

Kimin ad günü olsa, dağ döşünə, yamaclara gedib, oradan çiçək yığıb gətirib, təbrik edərdi. Axırıncı dəfə martın 6-da əsgərlikdən məzuniyyət verdilər. Həmin günü həm də doğum günü idi. Dostları ilə gəldi. Getməyinə 1 gün qalmış 22-si gecəsi səhərə qədər oturduq, o, atası və mən söhbət

elədik. Dizlərimi yerə qoyub oğlumun danışıqlarını dinləyirdim. Hərdən qollarını, boynunu tumarlayırdım. Dedi ki, ana, qollarıma, bədənimə cızıq düşsə, hərbi hissədə sorğu-suala tuturlar. Fikirləşirlər ki, bəlkə kiminləsə dava etmişik, kimsə döyüb. Çox ciddi baxırlar sağlamlığımıza və təlim-tərbiyəmizə. Axşamüstü bir neçə bağlama Novruz tədarükü yığıb verdim, dedim ki, apar əsgər yoldaşlarınla bölərsən. Samir axırıncı tikəsini də bölüşürdü.

Evdən çıxanda atasına deyib: "Bir anlığa çıxanda belə, elə vidalaşın ki, bir əsrə bərabər kimi olsun". İndi oturub danışdığı hər sözü, hər söhbəti çözələyirik ki, bəlkə içərisindən bir məna tapaq. Oğlumun istədiyi qızı da bilmədim ki, bir ona baxım. Gedəndə arxasınca su atdım ki, balam salamat qayıtsın. İyul ayında qayıdacaqdı. Mən elə bilirdim oğlumun cəmi üç dostu var. Buraya Akademiyadan 150 nəfər gəlmişdi. Bilmirdim ki, balamı bu qədər istəyən var, qarşımda baş əydilər... Amma mən bilmirəm neyləyim, oğlum çox yaraşıqlı idi. Boyu hündür, ala gözlü, mədəni, ağıllı, sevimli...

Samir Kaçayevin yas mağarından ayrılanda doğulduğu evin şəklini çəkdim. O Çuxuryurdda yan-yana düzülən, milyonlarla qiyməti olan villalardan birində deyil, bu balaca ağ daxmada dünyaya gəlmişdi. Atası Ziyadla da görüşüb başsağlığı verdim. Heç nə soruşmadım... Nə soruşacaqdım ki... Yeganə oğlu Vətən uğrunda qurban gedən bir atanın baxışla-

rı, duruşu , əslində hər şeyi deyirdi...

**O həm də istedadlı heykəltəraş idi...**

Qarabağ uğrunda Müqqədəs döyüşlərə qatılan, Tərtər ətrafındakı döyüşlərdə qəhrəmanlıqla həlak olan gənc heykəltəraş Samir Kaçayevi Azərbaycan Respublikasının Xalq rəssamı, Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarovdan soruşdum. Qocaman heykəltəraş onu belə xatırladı: "O gözəl diplom işi hazırladı. Əla qiymət aldı. O bizim institutun ən nümunəvi tələbələrindən idi. Dost kimi də, tələbə kimi də, gənc kimi də, kollektiv üzvü kimi də təhsil ocağımızın ən nümunəvi tələbəsi idi. Biz Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bütün professor və müəllim heyəti, tələbələrlə birlikdə, ağır da olsa gənc və istedadlı tələbəmizin dəfnində iştirak etməyə getdik. Ailəsinə minnətdarlıq etdik . Dedik ki, belə oğul böyütdüklərinə, tərbiyə etdiklərinə görə sağ olsunlar. Heyif ki... vaxtsız həlak oldu... müharibə, müharibədir. O məharətli heykəltəraş idi. Onun işlərində fərqlilik və mükəmməllik var idi. İnanmaq olmur ki, Samir Kaçayev belə uzaq dağ kəndində doğulub, böyümüşdü. Onunla münasibətdə belə rəy yaranırdı ki, sanki, mərkəzdən gəlib. Dərsi və sənəti dərinliklərinə qədər mənimsəməyə çalışırdı. Nəzəri və praktiki cəhətdən də kamil və mükəmməl idi. Onun əl işləri çox yüksək qiymətləndirilirdi və satılırdı da. Onun qismində

Azərbaycan böyük və istedadlı bir heykəltəraşını itirdi. Mən bütün cavanlara cansağlığı və hərbdə qazanılmış xoşbəxtlik arzulayıram. Qoy onlar heç vaxt gülləyə, mərmiyə tuş gəlməsinlər!!!"

İki gün sonra isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllim və tələbə heyəti Samir Kaçayevin adına anım tədbiri keçirdilər. Akademiyanın giriş divarları arasında baş tutan mərasimdə təkcə Samir Kaçayev yox idi. Əvəzində qara çərçivədən boylanan rəsmi hamıya yenə də gülümsəyirdi. Tələbə və müəllimlərin, onu tanıyan və tanımayanların hamısının gözlərindən, yanaqlarından yaş süzülürdü. Kimsə onun yoxluğuna inanmaq istəmirdi. 22 il ömür sürən bir gənc bu qədər məhəbbəti qazanmağa nə zaman imkan tapdı? Tədbirdə çıxış edənlər onun şəhid olduğu döyüşlərdə düşmən erməni tərəfinin verdiyi itkilərdən danışdılar. 25 ildən sonra qazanılan ilk qələbənin ilk saatlarında qurban gedən şəhidlərdən birinin də Samir Kaçayev olduğunu dedilər.

**Samiri axtarırıq... yalan olsun...**

... Və bir də ki, insanların qoşulduğu sosial şəbəkə, facebook səhifəsi. Samir Kaçayev divar səhifəsinə heykəl yonmaq üçün əşyalarının şəklini yerləşdirib. Səhifəni ələk -vələk elədim ki, bəlkə bir artıq söz - söhbət, əlavə şərh tapam. Çox ciddi və səliqəli bir səhifə. Özünün əl işləri, ən yaxın dostlarının 6 mart 2016-cı ildə yazdıqları ad günü təbrikləri ... və bir də

ki.. Bir də ki... 2 aprelə keçən gecə dostlarının, tələbə yoldaşlarının səhifədə Samir Kaçayevi axtararkən, təəssüf və yoxluğuna inanmayarkən yazdıqları-sözün yaxşı mənasında sərsəm, ürək dağlayan fikirləri:

**Afa Aslanova, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının müəllimi.**

“Samirciyim!!! Necə yəni belə? Sən axı magistraturaya qəbul olmusan!!! Sənin üçün mən əziyyət çəkmişdim, hazırlaşdırmışdım! İndi neyləyim??? Sən təhsilini davam etdirməli idin!!! Sən elə istedadlı, elə intizamlı, nəzakətli, rəhimli, xoşxasiyyət idin!!! Düz bir il bundan əvvəl səninlə dərsə başladıq. Bir dərsi belə boş buraxmadın. Mühazirələri elə diqqətlə dinləyirdin ki...Səni sevməmək mümkün deyildi!!! Bir dəfə emalatxanadan iş paltarındaca dərsə gəlmişdin, üst-başın əhəng-palçıqla dolu idi. Dəfələrlə üzr istədin. Dedin ki, əynini dəyişməyə imkanın olmadı...Sən hətta iş paltarında da, o əhəng, palçıqların içərisində də gözəl idin. Yapdığın heykəllərə bənzəyirdi qamətin!!! Ağlın, intelligentliyin, istedadın bütövlükdə səni tamamlayırdı. Samir mən səni çox sevirdim!!! Niyə belə oldu??? Niyə???”

**Lilli A-eva adlı istifadəçi, qrup yoldaşı:**

“Caaannnn... Samir, Şəhidlik zirvəsinə ucaldın... Bir neçə

gün bundan əvvəl səni gördüm, şəhidlikdən danışdın, dedin ki, şəhid olanlar məndən artıq deyil ki... Dedin... və getdin... Nur içində yat.... amma hələ də ümid edirəm... bilmirəm niyə?!".

**Build A Trumpet, İsraildən olan fb. istifadəçisi:**

"Yer üzü sağ olsun ki, nə vaxtsa səninlə məni görüşdürdü, xoşbəxt anlarımızı paylaşa bildik. Səninlə olan görüşlərimizə görə Tanrıya minnətdaram. Sənin təbəssümün həmişə mənim ağlımda olacaq. Sənin təvazökarlığın mənə xatırladacaq ki, heç bir qarşılıqlıq gözləmədən insanlara kömək etmək olurmuş. Səninlə işləmək və sənin necə həvəslə və məharətlə işləməyinə tamaşa etmək də mənə sevinc gətirirdi, gənc heykəltəraş! Harada olsan da, inanıram ki, Tanrı sənin qayğını çəkəcək. İndi tək bir arzum var, ruhunun yolu açıq olsun. Yaşadığımız Yer üzü sənin üçün çox darıxacaq, biz də sənin üçün darıxacağıq! Böyük məhəbbətlə: Build A Trumpet".

Şamaxı yollardan başlayır... Amma bəzən kimlərinsə yolu bu yolların başlanğıcında bitir... tamamlanır. Samir Kaçayev müqəddəs Şamaxıda müqəddəs insanların, övliyaların, şeyx və söz xiridarlarının uyuduğu torpağa qovuşdu. Təbiətin gül vaxtındakı məqamın Mübarək, Şirvanımın Şəhid oğlu!

**modern.az**

**09.04.2016**

*Heykəltəraş idi.*

*Və böyük heykəltəraş ola bilərdi.*

*Hər halda ona böyük ümid bəsləyirdilər və Samir bu ümidləri doğrulda-doğrulda addımlayırdı.*

*Yaradırdı.*

*İndi isə o yaddaşlarımızda yaşayır, yaradır.*

*İndi isə o özü abidədir.*

*Bu əzəmətli abidənin önünə tər çiçəklər düzməksə artıq bizim payımıza düşəndi.*


ҸAYEV

## "Şirvan şikəstəsi" ilə son mənzilə yola salınan ŞƏHİD

...Səkinə bibi zülm-zülm ağlayırdı. Naləsindən yer-göy titrəyirdi. "Belə ayrılıq olmazdı", - deyirdi. 15 gün əvvəl əziz nəvəsini bağrına basıb, qoynunda yatırtmışdı. Səhərə-qədər öpüb oxşamışdı əsgər balasını. İndi "Nəvəndən bir xatirə de", - sözümü ağzımda yarımçıq kəsib, "mənim xatirələrim dağı-daşı yandırar. Mənə Allah qismət yazmadı. Qızım Şahxanımın 3 yaşı olanda, atasını aldı əlimdən. Şahxanımı ərə verdim, gözüm-könlüm açıldı nəvələrim doğulanda, dedim ki, bircə qızım xoşbəxt oldu. Balalarının sevincini, toyunu görəcək daha. Fələk qızımla da yola getmədi, 19 yaşlı balamı deyə-gülə əsgər yola saldım, onu da əlimizdən aldı. Balamın nə yaşı var idi ki, indidən bala dağı görəydi"-deyib, gözlərinin yaşını Şirvanın büllur bulaqları kimi axıtdı.

"Şirvan şikəstəsi" Yer üzündən küsənlərin haqqa harayıdır, şikayətidir

Hə... Doğrudan da Səkinə bibinin danışdıqları elə bir qəmli kitaba bərabər idi. Ancaq sevincli günləri də olmuşdu. Nadir Zəkərəyev 1994-cü ildə öz toyundan sonra dədə-baba yurduna, sevimli Şahxanımını gətirdi. Sonra üç övladı dünyaya gəldi, qızı

Ceyran, 1997-ci ilin avqust ayının 31-də ikincisı Nazim doğuldu, sonra kiçiyi Namiq dünyaya gəldi. Uşaqların ayağı düşərli oldu. Şamaxının ən gözəl məhəllələrindən birində torpaq alıb, koma da tikdi. Fəhləliklə balalarını dolandırdı. Oğlu Nazimin 6 yaşı olanda uşaqlara kiçik toy çaldırdı həyətində. Toy, nə toy. Şirvan toyu ola, əlində, sinəsində saz, dilində söz oynayan aşıqlar ola. Zəkərəyevlərin həyətlərindəki toyun səsi məhəllənin hər yerinə yayıldı. Aşıqlar meydan suladılar. "Şirvan şikəstəsi", "Döymə şikəstə", "Zarıncı şikəstə"... aşıqlar şirin avazları ilə gələnin gedənin könlünü aldılar, Şirvan bayatıları səfə düzüldü. Şirvan toylarında şikəstələr oxunmasa, o məclis sayılmaz.

Bu yerlərdə toy mağarına toyu olan bəndəni geyindirib-kecindirib, BƏYLİK libasında çıxararlar. Balaca Nazimin də balaca dostları sağında, solunda durdu, qohum-əqrabanın qız-gəlinləri, bəyin boynuna evlərindəki sandıqlarda saxladıqları ipəkdən, xaradan xələt atdılar, qarşılarına xonça qoydular. Aşıq da oxudu ki, "Görüm ay bəy, toyun mübarək olsun, Sağdışına, soldışına borc olsun... İndi xələt versin Rəhman babası, Nə gözəldir Nazimin toy xonçası..."... Toya dəvətlilərin hər biri istəyirdi ki, aşıq

onların da adını çəksin, onlardan da xələt istəsin. Və o toyda ata Nadirə oğlunun böyük toyunu görməyi arzuladılar.

**Məni gözləyərsən gələnə kimi?**

...Gah qoyun-quzu dalınca qaçdı, gah da əlinə fürsət düşəndə gedib evlərdə taxta-döşəmədən, qapı pəncərədən , taxta-tuxtadan bacardığı avadanlıqlardan düzəltdi. Ucuzuna-bahasına baxmadı... Nə versələr, "Şükür Allaha, ruzimizi yetirdi"- deyib, axşam evinə, balalarının başına döndü. Böyük oğlu olduğundan Nazimə çox güvənirdi. Özü ilə iş görməyə, qoyun-quzu nobatına da aparırdı. Ancaq uşaq nə qədər götürümlü, zəhmətkeş olsa da, fikri–zikri oxumaqdaydı. İstəyirdi ki, hüquqşünas olsun. Kitab-dəftər də əlindən düşmürdü. Hələ hərdən- bir yaşadıqları məhəllədə yaşıdlarınn arasında mübahisə olanda, kiminsə sözü çəp gələndə, haqqın tərəfində dayanıb, dürüst hökm də çıxarırdı, sülh yaradırdı. Lakin... oxumağa göndərmədi atası Nazimi... Dedi "bala, get əsgərliyini çək gəl, indi ailəni güclə dolandırıram. Bakıda oxusan sənin xərcini çatdıra bilmərəm. Uşaq oxutmaq asan deyil. Əsgərlikdən qayıdıb, oxuyarsan, inşallah!.." Nazim də nəkarəydi

ki, böyük sözündən çıxa. Babası Rəhmanın öyüdlərindən, danışıqlarından doymazdı. Hələ 5-ci sinifdə oxuyandan babası əlindən tutub onu güləş məktəbinə aparardı. Şamaxıda həmişə güclü güləş məktəbləri, ustadları olub. Əməlli-başlı güləşin sirlərinə də yiyələnmişdi. Əvvəllər şəhər birinciliklərində, sonra rayonlararası yarışlarda, daha sonra isə respublikamız üzrə güləş birincilik turnirlərində qələbə qazandı, ancaq qələbələr gətirdi evə. Nəvəsinin belə uğurlarını görən baba, kiçik nəvəsi Namiqi də ona qoşdu. İndi güləş məktəbinə gedəndə ikisinin əlindən tuturdu... İndi bunların hamısı bir kino lenti kimi gəlib keçir Zəkərəyevlərin ailəsində hamının gözü önündən.

Nazim də müharibə dövrümüzün uşağı idi. Dost-aşna arasında söhbəti-sözü vətənlə başlayıb, müharibə, dava ilə qurtarırdı. Böyük villaları yox idi, mal-qara sürülərindən məhrum idilər, qapılarında növbə-növ maşın dayanmırdı ki, onların fikrini çəkəydi. Fikri-zikri TORPAQ idi, VƏTƏN idi. Bir də oxuyub, təhsil almaq... Bir də ki, son payızı yaman gözləmişdi... Bəzi məhəllə yoldaşları, sinif yoldaşları əsgər getdiyindən , könlünu o uşaqlar olan tərəfə, düşmən tapdağı altında olan torpaqlarımıza

bağlamışdı. Həmin payız gəldi yetişdi. 2015-ci ilin oktyabr ayının 6-da onu da yola saldılar. Atası Nadir çox çək-çevir edib, oğluna dedi ki, ay bala, bəlkə həyətdəki beş-altı qoyun- quzunu satıb, mən də sənin yerini arxaya yazdırım. Qaynar yerlərə düşmə. Oğul dediyindən dönmədi. Mən cəbhəyə yaxın yeri istəyirəm, deyib, atasını bu işə qarışmağa qoymadı. Əsgər gedəcəyi gecəni sabaha qədər yatmadı ki... Gözə yuxu gedərmi...

Nazim qaralama dəftərini tapıb ürəyindən keçənləri yazdı. Hərdən elə-belə cızmaqaralar edib, üzə çıxarmağa da utanardı. Ya da cırıb tullayardı ki, heç kim görməsin. Bir də ki, şirvanlı olasan, özünü şeir-söz meydanında sınamayasan ...

Bilmirəm, biləssən, bilməyəcəksən.
Adımı qəlbindən silməyəcəksən,
İl yarım üzümü görməyəcəksən,
Məni gözləyərsən gələnə kimi?

Adını qəlbimə şirin yazmısan,
Sən mənim qəlbimdə nübar yazımsan,
Hamıyla görüşdüm, bir sən qalmısan,
Bunu bilməyirdin dünənə kimi.

Gedirəm düşməndən kamımı alım,
Torpağımı alım, qanımı alım,
Şəhid oğlanların yanında qalım
Göylərdə Allahım bilənə kimi!

Qardaşım da mənsiz durammayacaq,
Anamın göz yaşı dayanmayacaq.
Atam ölümümə inanmayacaq,
Tabutum çiynində gedənə kimi. —

- bu sözləri yazdığı vərəqəni də təzə kostyumunun cibinə qoydu.

Səhər açılanda isə nənələri Ceyranla, Səkinə ilə, babası Rəhmanla, atası-qardaşı, bacısı Ceyranla, onu yola salan hamıyla görüşüb "Mən əsgər gedirəm, ana"-deyib, yola çıxdı.

Yavaş-yavaş əsgərlik həyatının qanun-qaydalarına da öyrəndi. Qonşu Göylər kəndindən olan Elşən Səmədov da onunla bir hərbi hissəyə düşdü. İki şamaxılı bir yerdə olanda bir-birinə "qadoyalım, başuva dönüm"- deyərlər. Beləcə bir-birinə arxa olub, hərbin sirlərini öyrənməyə başladılar.

Noyabrın 15-ində andiçmə mərasimi oldu. Bütün qohum-əqraba yığışıb, Tərtərə Seysulana get-

dilər. Hərbi hissədə 8 nəfər əsgəri də yığıb gətirdi qohum-əqrabanın yanına. Süfrə açdılar, yedilər, güldülər, danışdılar. Hərbi hissənin komandiri də hərdən gəlib nəzakət xatirinə valideynlərə baş çəkir, onların arzu-istəklərini soruşurdu. Atası Nadir oğlunu soruşanda komandir deyir: "Qardaş buradakı bütün əsgərlər mənim balamdır. Nazimin yeri isə bir başqadır. Dağ oğlu ki, dağ oğlu... Elə Şamaxının havası, suyu var canında. Nümunəvi əsgərdir. Axıra qədər özünü belə aparsa, tezliklə, ona məzuniyyət də verəcəm..."

Nazim Zəkərəyev arada fürsətdən istifadə edib, dostu, rəfiqəsi olan anasını kənara çəkdi, xeyir- dua istəyərək, bildirdi ki, hərbi hissədə kəşfiyyata yazılmaq istəyir. Şahxanım, oğluna "yox, sənin kəşfiyyatda nə işin var, əlindən hər iş gəlir, ustasan, mebel düzəlt, hərbi hissənin sınıx-salxaq işlərini gör, getmə, bala"- dedi. Lakin Nazim artıq adını kəşfiyyata yazdırmışdı. Hər görüşün sonunda bir ayrılıq olur. Gündüzü axşam edib, əsgər balalarını görməyə gələnlər geri qayıtdılar.

**Qarışıq yuxular görər analar...**

Oğlu ilə görüşdən qayıdandan sonra, Şahxanımın

yuxuları qarışdı. Fevralın axırında isə özü öz səsinə oyandı. Yuxusunda görmüşdü ki, müharibədir, oğlunu vururlar...

Düz martın 15-nə kimi qarışıq yuxularının bir yozumunu tapmadı. Martın 15-də nümunəvi xidmətlərinə görə Nazim hərbi hissədən 5 günlük məzuniyyətlə mükafatlandırıldı. Və elə həmin günü də evlərinə gəldi. Babası Rəhman o dəqiqə uşağın ayaqlarının altında bir qurban kəsib, əhd elədi ki, qurbanın birini də əsgərlikdən sağ-salamat qayıdanda kəssin...

İndi Zəkərəyevlər ailəsinin yaddaşında ən çox qalan o 5 gündür. Həmin 5 gün ərzində bütün qohum-əqrabaya, qonum-qonşuya, dost-tanışa baş çəkdi, hərənin evində 10 dəqiqə oturdu. Güldü, danışdı, şənləndi Nazim.

**Nənəsi Səkinə:**

- Mən heç bilmədim ki, o uşaq niyə birdən-birə elə böyümüşdü. Kürəkləri genəlmişdi, boy-buxunu artmışdı. Soruşdum, dedi ki, nənə, idmanla məşğul oluram, hərbi hissədə də yeyib-içirik, kef edirik. Gecəni qoynuma salıb yatırtdım. Səhərə qədər qollarımı balınc elədim. Başının altından çıxarmadım. Mən

yuxuya getdim. Durub gördüm ki, o, hələ yatmayıb. Həmin günü Nazim bir yuxu, gördü, lakin kimsəyə danışmadı. Yuxunu telefonuna yazdı. İndi susan telefonunun yaddaşında bu sözlər qalıb:

Yuxuda görürəm qurtarır zülm,
Sevdiyim qaçaraq gəlir yanıma.
Az qaldı yuxuda sevincdən ölüm,
Çox şükür, dəymədi xudam canıma!

Anası Şahxanımın cəmi 37 yaşı var. Heç söz də tapmır balasını öyməyə. Bildiyi sözləri də yadından çıxarıb Nazim. "Ayın 20-si Nazimi səhər yola saldıq bu qapıdan... elə getdi qapıya, bir də qayıtdı... bir neçə dəfə gedib, qayıtdı. Elə bil ürəyinə nəsə dammışdı. Ancaq ona dedim ki, bala, özünə yaxşı bax, özünü qoru. Mənə dedi ki, ana, məndən arxayın olun, mən sizin adınıza şərəf-şan gətirəcəyəm. Nazim gedəndən sonra yuxum ərşə çəkildi. Ayın 1-i idi. Bilmirəm nə olmuşdu, o buludlu göylər kimi dolub boşalırdım. Öz-özümə o qədər ağladım ki... Axşamüstü bildim ki, dünya qarışıb bir-birinə. Ayın 3-ü bir qohumumuz dedi ki, Tərtər tərəfdə vəziyyət çox gərgindir. Biz də zəng vurduq uşağın komandirinə.

Bizdə olan telefon nömrələrinin heç biri cavab vermədi. Belə olanda yoldaşım durub getdi Tərtər bölgəsinə.

**Nadir Zəkərəyev, atası:**

- Aprelin 3-dən sonra, əmim Rəhmanla getdik uşağın olduğu yerlərdə izini axtarmağa. Gördüm, deyən olmadı. Nə ölü, nə diri siyahısında tapmadıq. Ayın 9-u uşağı tabutda gətirdilər ki, götürün oğlunuzu. Belimi sındırdı, ümidlərimi yerlə- yeksan etdi. Hər sözümü-sirrimi bölürdüm, məsləhət alırdım. Sənətimi öyrətmişdim ona. Hər işi səliqəli idi. Ağac-taxta parçasına bir naxışlar atardı ki... nə iş görsə gözəl alınırdı. Mənim arxam, köməyim idi.

Nadirin söhbətini dinlədikcə Şirvan aşıqlarını xatırladım. Qulağıma Aşıq Şakirin, Aşıq Əvəzxanın səsi gəldi. Şair Hüseyn Cavanın məşhur "Maral" mahnısını oxuyanda min bir naz-nemətlə, min bəzəklə səsləri ilə simlərin harmoniyasını yaradıb, neçə yaraya məlhəm olmuşdular, həzin-həzin oxuyub neçə ürək dağlamışdılar:

Cavanam bir diləyim var,
Elim, arxam, köməyim var.

Sulardan saf ürəyim var,
Mən çökmərəm dizə maral.
Gəlməyəsən gözə maral.

"O şəhid oldu ki, Vətən yaşasın"

**Babası Rəhman Zəkərəyev:**

- Hə... ağır günlər oldu. Ayın3, 4, 5, 6-sı Tərtərdə, cəbhə bölgələrində olduq. Ürəyimə dammışdı. Ancaq inanmaq istəmirdim. İnsanlarda böyük ruh yüksəkliyi gördüm. Hamı maşın-maşın yığışıb vuruşmağa, torpaqları azad etməyə gedirdi. Gedəni də üzü bəri qaytarırdılar ki, hələ könüllülərə ehtiyac yoxdur. Millətimiz bir oldu, əsgərlərimiz düşmənə, dünyaya gücünü göstərdi. Nazim bir başqa bala idi. Aramızda pərdə var idi. Mənə söz deyəndə də çəkinə-çəkinə deyirdi. Müharibənin öz qanunları var. Oğulu Vətəni müdafiə etmək, qorumaq üçün böyüdürük. O günü Şamaxıya həm də qohumumuzun oğlu Elşənin tabutunu gətirmişdilər. Azərbaycan bayraqlarına bürünmüşdü küçələr. Şirvanda Qalibiyyət bayraqları ucalmışdı. Biz o xəbərin acıyıq, biz Qələbə möhtacıyıq. El-oba tökülüşüb gəldi, çox böyük ehtiramla, hörmətlə oğlumuzu dəfn etdik. Allah

millətimizdən, dövlətimizdən razı olsun. Bu qədər təntənə ilə, şəst ilə qapımıza gəlib, uşağımıza şərəf verdilər. Ancaq uşağımız da elə Vətənə şərəf oldu. Nazim başqa cürə ola da bilməzdi. Onu biz halal çörəklə böyütmüşük. Halaldan haram bitməz. O şəhid oldu ki, Vətən yaşasın, gərək sona qədər gedəydilər... Ümid edirəm ki, gedəcəklər...

Nazim Zəkərəyevin tabutu çiyinlərdə tarixlərə şahid Cümə məscidinə qədər getdi. Cümə məscidinin həyətində adına el namazı qılındı, şəhadətinə dualar oxundu. Bu həmin Cümə məscidi idi. Uzaq olmayan 1914-1918-ci illər... O zaman ermənilər ingilislərin, rus çarının sifarişi ilə divan tutmuşdular Şamaxıya, Şirvana. Əldə həmişə alət olan erməniləri ingilislər, ruslar aldadıb demişdilər ki, Şeyx İbrahimxəlilin yurdu Şamaxının açarını onlara verəcəklər... Qırğın başlamışdı, türkün qanı su yerinə axmışdı bu küçələrdə. Hamilə gəlinlərin diri-diri qarnını cırıb, körpələrini bətnindən çıxarmışdılar. Közlə, suyla dolu qaynayan samovarı qadınların belinə bağlamışdılar. Qara-qara hörüklərindən tutub bu küçələrlə bir sürümüşdülər, kişilərin başını arvadlarının, uşaqlarının gözü qarşısında kəsmişdilər, türk insanlarını qanına qəltan edib, ailələrin kökünü kəsmişdilər. Günahları türk

olmaları idi. Ancaq lap elə o vaxtlar da rusun, ingilisin havadar durduğu erməniyə şirvanlılar da divan tutmuşdular. Cavablarını vermişdilər. Dərd onda idi ki, erməninin havadarları güclü idi. Çünki ingilisi də, rusu da bilirdi ki, türk güclənsə, Azərbaycan bir şirin tikə kimi əldən gedəcək. Həmin o günlərdə, aprel ayının 15-nə kimi Şamaxıda qırğınlar oldu. Türkləri, şirvanlıları bu Cümə məscidinə yığıb od vurdular. Allahın evi zəbana gəldi, Allah o gecə müsəlmanların səsini eşitmədi. Yandırdılar, öldürdülər şamaxılıları... Sonra Nuru Paşa öz dəstəsi ilə köməyə gəldi. Dadımıza yetişdi. Türk qisası qiyamətə qoymaz ki...

2016-ci il. Yenə aprel günləri idi... Tarix bəzən təkrar olur. Bu aprel günlərində gənc oğullarımız Vətən torpaqlarının azadlığı uğrunda şirin canlarından keçdilər. Nazimi "Vətən, sənə canım fəda!" sözləri, alqış sədaları ilə Şamaxı torpağına, o müqəddəs övliyaların yatdıqları torpağa əmanət etdilər. Onun dəfnində dünyanın bir çox ölkələrindən - Albaniya, Almaniya, Türkiyə, Rusiya, Özbəkistan, Gürcüstan və Polşadan olan tarixçi alimlər iştirak edirdilər. Onlar Şamaxıda keçirilən "Azərbaycan və Şərqi Anadoluda türk-müsəlman əhaliyə qarşı soyqırımları (1914-1920-ci illər)" adlı III Beynəlxalq elmi

konfransa dəvət olunmuşdular. Lakin qonaqlar daha möhtəşəm bir anın şahidi oldular. Nazimin və Elşənin məzarı başında olan coşqunun, şəhidini alqış sədaları ilə, toy-bayram ilə torpağa əmanət etmək kmi bir təntənə gördü alimlər. Bu təntənənin, bu Vətən sevgisinin qarşısında çaşıb qalmışdılar. Ancaq alim sözü dəyərlidir. O şəhid balaların məzarı üstündə SÖZ diyarı Şirvanda söz dedilər, Tanrıdan onların ruhlarına kömək olmağı arzuladılar. Və tarixi bir həqiqətin, günün şahidi oldular. 2-5 aprel günlərində öz tarixi torpaqlarını düşmənlərdən azad etmək arzusu ilə irəli atılıb QALİBİYYƏT qazanan əsgərlərimiz Azərbaycanın eşidilməyən səsini dünyaya yaydılar, onlar öz qanları ilə, canlarını qurban verməklə dünyanı dolanan xristian hiyləsini, rus və erməni siyasətinin yalanını üzə çıxardılar.

19 yaşlı şəhid balamızın həyat hekayətini özünü şairlər, söz xiridarları sırasına qatmaq istəyən, lakin o sıraya düşməyə cürət etməyən, şerlərini cırıb tullayan şair Nazim Zəkərəyevin daha bir şeiri ilə tamamlamaq istəyirəm:

Böyüyə, kiçiyə hörmət elədim,
Allaha inandım, niyyət elədim.

Altı ay Vətənə xidmət elədim,
Torpaqdan yaranıb, torpağa döndüm.

Yol tapdım düşmənin gizlin izinə,
Şəhidlik zirvəsin seçdim özümə.
Cənnətin qapısın açıb üzümə,
Şirvana üçrəngli bayraqla döndüm.

modern.az
15.06.2016

*Şeir yazırdı.*

*Yaza bilirdi.*

*Bunu Nazimdən qalan misraları oxuyan hər kəs təsdiqləyə bilər*

*Və bu şeirlər yazmaq xatirinə yazılmırdı.*

*Bu da bir həqiqətdir.*

*Şeirlərindən birində "Məni gözləyərsən gələnə kimi?" sualını verən Nazim əbədiyyətə qovuşub.*

*İşğal altında olan son qarış torpağımızı azad edəcəyimiz günü çox gözləməyəcəyimizə də inanırdı Nazim.*

*Biz də inanaq.*



## Sağlığına qurban demişdilər, şəhidliyinə qurban kəsdilər

Çox mənbələri axtardım. Göy səma altında göyərən Göylər kəndi haqqında sanballı bir tarixi mənbə tapmadım. Həm kəndin adı, həm də burada yaşayan insanların gözlərinin rənginin göy olması, onların qədim Alban tayfaları və ya Göy Türklərin kökündən gəldiklərini ehtimal etməyə əsas verdi. Məlumdur ki, eramızdan sonrakı əsrlərdə də şimaldan Albaniyaya müxtəlif türk tayfaları gəlib məskunlaşmışdılar. Belə düşünmək olar ki, Oğuzlar (sonra tatar-monqollar, ağqoyunlular və qaraqoyunlular) Azərbaycana köçəri maldarlığı gətirdilər. Albaniya ərazisində türkdilli tayfaların bəziləri yerli, digərləri isə müxtəlif vaxtlarda gəlmələr idi. Yerli etnosların aparıcısı alban tayfası idi. Lakin bu etnos VII əsrdən sonra çox qəribə bir tale ilə qarşılaşdı. VII əsrin ortalarından Albaniya (Aran) ərəblərin işğalına məruz qaldı. Şirvan tayfasının müəyyən hissəsi Alban dövlətinin süqutundan sonra Şimali Azərbaycan ərazisində məskunlaşdı. Şamaxı da Şirvanşahlar dövlətinin paytaxtı kimi təşəkkül tapdı. Müharibələr, təbiət hadisələri isə burada yaşayan oturaq xalqların genini dəyişdirə bilmədi. Ona görə də bu gün Şirvanda, Şamaxıda alban və türk tayfalarının izləri qalan kəndlərin adı dəyişdirilib, ərəb sözü artırıl-

sa da, gen və genetik kod dəyişməyib. Yaşı qədimlərdən də qədim olan Göylər kəndinin göy gözlü insanlarının əksəriyyəti də Göytürk tayfalarının davamçılarıdırlar, deməyə əsasım var. Yəqin ki, alimlərimiz bu mövzunu araşdırsalar, çox elmi mətləblərin açarını əldə edəcəklər.

**Göy gözlü Göylərlilər**

1918-ci ildə Lalayan, Samson Aspirov və Əmirovun quldur dəstələri aprelin 3-dən 16-na kimi Şamaxı əhalisinə qanlı divan tutdular. Şamaxı qəzasında yerli erməni-rus-malakan kəndlilərinin köməyi ilə daşnaklar 8000-dən artıq dinc azərbaycanlı əhalini öldürdülər. 72 kəndi dağıdaraq, 12 məhəllə məscidi və 800 illik tarixə sahib Şamaxı cümə məscidini içərisindəki insanlarla birlikdə yandırdılar. Öldürülənlərin 1600 nəfərindən çoxu qadın, 965 nəfəri isə uşaq idi. Dağıdılan 72 kənddən biri də Göylər idi. Mənbələrdən belə aydın olur ki, erməni quldurları Göylərdə 118 nəfəri qətlə yetirib.

Şamaxının ən böyük kəndi sayılan Göylərin bu gün 7424 nəfər əhalisi var. Azərbaycanın azadlığı və Qarabağ uğrunda Vətən döyüşlərində Şamaxı onlarla şəhid verib. Onun 8-i Göylər kəndindən olan şəhidlərdir. 8-cisi isə Göylər kəndində 1997-ci ilin iyun ayının 20-si dünyaya gəlmiş Elşən Səlim oğlu Səmədovdur. O da 2015-ci ildə

hərbi xidmətə çağırılan əksər yaşıdları kimi Vətənə borcunu ödəmək, hərbin sirrlərinə azca da olsa yiyələnmək üçün əsgər getdi. Böyük qardaşı Rəfaelin hərbi xidmətdən qayıtmasına 3 ay qalmışdı...

Göylərin dolamba-dolanc yolları ilə gəlib Səlim Səmədovun qaldığı məhləni tapdım. Darvazanın üstündə bu günə kimi də Azərbaycan bayrağı dalğalanır. Dəmir darvazanı açıb içəri keçdim. Gəlişimin səbəbini söylədim. Söhbətləşdik, məlum oldu ki, Səlim Səmədovun oğlanları, əsgərliyə bütün yaşıdları kimi ata evindən deyil, ailələrinin kirayə götürdükləri çadırdan yola düşüblər. Ailənin başçısı Səlim çobandır. Özünün mal-qara sürüsü olmasa da, mal-qara saxlayan sahibkarlara ailəliklə çobanlıq edirlər. Çöllü-biyaban, çobanlıq, tərəkəməlik həyatı onlara ev tikməyə, yurd salmağa imkan verməyib. Çünki əllərində artıq pulları, gəlirləri olmayıb ki, bir yurd, od-ocaq sahibi olsunlar. Göylərdəki ata mülklərinə isə Səlimin bir neçə bacı-qardaşı göz dikib. Səlim isə 22 il ərzində ona yoldaşlıq edən həyat yoldaşı Süsənlə gələcəkdə özlərinə bir ev-eşik qurmaq arzusu ilə çabalayıblar. Hər iki oğlunu da əsgərliyə Göylərdən deyil, Saatlıdakı çobanlıq etdikləri çadırdan yola salıblar.

Aprel ayının əvvəllərində Azərbaycan Ordusunun torpaqlarımızı azad etmək uğrunda müqəddəs savaşı

başlayanda isə onların dünyadan xəbərləri yox idi. Başları sahibkarın qoyun-quzusunu rahatlamağa, otarmağa qarışmışdı. Qardaşından qəfil aldığı zəngdən sonra Səlim cəbhə zonasında vəziyyətin gərgin olmasından xəbər tutur.

Şəhid Elşən Səmədovun anası Süsəndən oğlu barədə danışmağı rica edirəm. Çaşıb qalıb. Həyətdə oturan mavi gözlü, təxminən 70 yaşlarında olan beli sarıqlı, düz qamətli qadın Süsəni dilə gətirmək üçün özü danışdı. Nənənin adı Fizzətdir:

- Danış da, a bədbəxt... Denən necə çətin günlər görmüsən, o uşaqları hansı çətinliklərlə böyütmüsən. Vəziyyətindən, əziyyətindən danış. Onun-bunun qoyununu otarıb, ayda 100 manat pula göz dikməyinizi de. Ay qızım, ay Allahın bəndəsi, bunların şəxi ev-eşikləri də olmayıb. Elə ata yurdlarında da böyük qardaş yaşayır. O uşağı, o biri oğlanlarını, qızını nə halnan böyüdüb. Çobançılıq etdiklərindən uşaqları oxuda da bilməyib. Nənələri qoca olduğundan qulluğunda dura bilmədi. Hərəsi 6 sinif bitirəndən sonra, çöllü-biyabana, ata-analarının yanına gediblər. Yiyələri olmadı... Kasıb balası idilər. Birini tapanda-beşini tapmadılar... Evi-eşiyi olsaydı, onlar da uşaq oxudardılar. Səlimin 4 oğlu, 1 qızı var. Kasıbın nəyi olmasa da, uşağı olur, şükür Allaha.

Kiçik oğlu Amidi göndərib Bakıdakı əmisinin yanına ki, bəlkə o məktəb oxuya. Hələ məktəbə gedir. Elşən də bir pir-peyğəmbər kimi uşaq idi. Hansı buyruğa göndərsəydin gedərdi...Vətənimiz sağ olsun... neynək... ,- bunları danışan Fizzət nənə aradabir ailənin başçısı Səlimə də acıqlandı:

- Ay kişi, sən də gözünə güc vermə, az ağla, onsuz da sizdə ürək qalmadı. Özün xəstə adamsan. İnfarkt keçirmisən. Deyirsən indi də sənin dərdini çəkək?

Bax belə, ay qızım, o uşaq öləndən sonra, hamımızın növrağı dönüb. Mən bunların həm qonşusuyam, həm də dayıdostuları. Vallah, evdə otura bilmirəm. Keçib gəlirəm ki, sızıldamağa-ağlamağa qoymayım... Heç dayanmırlar...

**Yenə şəhid Elşənin anası Süsənə müraciət etdim, danış, dedim:**

- İyulun 16-sı onu əsgər yola saldıq. 3 aydan sonra böyük oğlum Rəfail əsgərliyini çəkib qayıtdı, gedib qardaşına baş çəkdi. Elşən fevralın 21-i məzuniyyətə gəlmişdi. Martın 1-nə qədər bizimlə qaldı. Bizimlə qaldı deyəndə ki, günümüz qara oldu. Əsgərlikdən onu xəstə göndərmişdilər. Əlimizdə-ovcumuzda olanı da tökdük Saatlının, Sabirabadın xəstəxanalarının yoluna. Elşən məzu-

niyyətə gələn gündən burnunun qanı dayanmadı. Bir də ki, nə yeyirdisə, qaytarırdı. Ancaq neyləsək də, həkimlər bir dərdini demədi. Martın 1-i atası aparıb hərbi hissəyə təhvil verdi. Hər axşam bizimlə danışırdı. Ancaq martın axırı zəng edib dedi ki, Mingəçevirə təlimə gedirlər. Aprelin 1-dən sonra isə zəng vurmadı... Nigaran qaldım ki, uşağım xəstə-xəstə əsgərlikdə nə zülümlar çəkir. Əlimiz hara çatır ki... Xəstəliyini də sübut edib, saxlatdıra bilmədik. Düzgün baxan həkim olmadı.

**Şirvanda şıxlar, Dərbənddə qırxlar**

Biz ailənin üzvləri ilə söhbət etdikcə, ata Səlim tez-tez gözlərinin yaşını silirdi. Ona baxdıqca, Xaqani Şirvaninin 20 yaşlı oğlunun ölümündən sonra yazdığı şeiri pıçıldayırdım:

Firqətində bala, bundan da betər yansın atan,
Söndü şəmin, kor olub qüssədən odlansın atan.
Kəkliyim, təşnə dodaqlar ilə uçdun, gözü qan,
Bir turac tək sənin arxanca qanadlansın atan.

**Səlim kişini birtəhər dilə gətirdik:**

- Məzuniyyəti qurtarandan sonra uşağı apardım “sançast”a (hərbi hissənin tibb məntəqəsi). Həkimlərə dedim ki, “bu əsgər xəstə idisə, özünüz sağaldaydınız, onu

niyə xəstə halda evə buraxırdınız? Axı məsuliyyəti sizin üstünüzdədir". 2 gün "sançast"da yatandan sonra, onu yenə hərbi hissəyə göndərdilər. Ayın 3-ü Elşəndən bir xəbər bilməyəndən sonra, hər gün Saatlıdan gedirdim Tərtər, Bərdə, Göranboy... İmişli... Aprelin 8-nə qədər axtarmadığımız yer qalmadı. Nə ölü, nə yaralı, nə diri siyahısında adını tapdıq. Ayın 8-i dedilər ki, neytral zonadan "Qızıl Xaç" götürüb. Aparanda asan apardılar balamı, ancaq mən geri almaq istəyəndə başım zillətlər, müsibətlər çəkdi. 6 gün o yollarda quzu kimi məlɘdim, balamı axtardım. "Şirvanda şıxlara, Dərbənddə qırxlara" qurban demişdik ki, təki balamın meyitini tapaq, qurban kəsərik. Tabutunu gətirəndən sonra oğlumun gəlişinə qurban kəsdik. Sağlığında götürdüyümüz qurbanları qəbula keçmədi.

Burada bir haşiyə çıxacam. Bayaq nahaqdan, göylərlilərin göytürklərdən qalma olduğunu ehtimal etmədim. Oxucularımıza "Şirvanda şıxlar, Dərbənddə qırxlar" barədəki tarixi həqiqətdən danışmaq istəyirəm. Diqqətinizə çatdırım ki, bu tarixi həqiqət Abbasqulu Ağa Bakıxanovun "Gülüstani-İrəm" kitabında da qeyd olunub:

"Dərbəndnamə" sahibi deyir: "...Hicri 41-ci (=662) ildə, səhabələrdən Səlman və Rəbiə- tülbahili, 4000 igid və döyüşkən qoşunla xəzərlərin geri aldıqları Dərbəndə

doğru hərəkət etdilər. İslam qoşunu gəlincə, Dərbənd Narınqalasının mühafizləri Həmri qalasına qaçdılar. Müsəlmanlar qalanı və Dərbənd şəhərini ələ keçirdilər. Xəzər padişahı Xaqan, külli qoşunla onları dəf etməyə gəldi. Müsəlmanlar da onu qarşıladılar. Dərvaq çayı kənarında hər iki tərəf üz-üzə gəldi. Ərəblərin şücaəti haqqında çox şeylər eşitmiş olan Xaqan, müharibə etmək istəmirdi, zənn edirdi ki, silah onların bədənlərinə kar etmir. Bu halda, xəzərlərdən bir nəfər dəniz sahilinə getdi, orada təkbaşına çimməkdə olan bir müsəlmanı öldürdü, başını kəsib Xaqanın hüzuruna gətirdi. Bu əhvalatdan sonra, müharibəyə cəsarət etdilər, 5 gün səhərdən axşama qədər hərb meydanı qızışdı, hər iki tərəfdən camaat qırıldı. 6-cı gün Xaqan öz qoşununu çox məzəmmət edib dedi: "Bu gün hər kim müharibədən üz çevirsə, mükafat olaraq məndən əzab görəcəkdir". Bu tərəfdən də, müsəlmanlar cəhad şövqilə ruhlanmışdılar. Səlman və Rəbiə öz qoşun dəstələrinin qarşısında, 40 nəfər könüllü ilə düşmənə həmlə etdilər. Çox şiddətli bir müharibə oldu, Xaqanın qoşunundan neçə min nəfər öldürüldü. Səlman ilə Rəbiə də bu 40 nəfər ilə birlikdə öldürüldülər. Bunların qəbirləri Dərbənd şəhərinin yanında, Qırxlar adı ilə ziyarətgahdır. İslamın qalan qoşunu məğlub oldu, yaralılar Dərbəndə və buradan

da Şama qayıtdılar. Xaqan Dərbənd şəhərini mühafizə etmək üçün 3000 nəfər əsgər təyin edib, öz paytaxtına qayıtdı".

Bu, Xəzər türklərinin qoçağlığından, igidliyindən xəbər verən bir tarixdir. Dərbənd şəhərində həmin Qırxların qəbri qorunur. Şirvanda isə Şeyxlər həmişə müqəddəs sayılıb, çünki, Şeyxlər savadları və müdriklikləri ilə hər zaman xalq içərisində nümunə timsalı olub. Həmin Şeyxlər, dünyadan ötəndən sonra isə onların məzarları Müqəddəs yer kimi qorunub əsrlərə yadigar saxlanıb, xalq tərəfindən səcdəgaha çevrilib.

Elşənin ata-anası da, inandıqları həmin Dərbənddə Qırxlara, Şirvanda Şıxlara qurban demişdilər.

### Səsi torpaqlara qarışan Elşən

Şəhidin atası Səlim Səmədov:

- 6 gün onun hərbi hissəsində Elşənlə yoldaşlıq edən dostları barəsində o qədər xoş sözlər dedilər ki... Elə bizim bu Şamaxıdakı Nazim Zəkərəyevlə də birlikdə qulluq edirdi. Həm də orda dost olmuşdular. Nazimgilin valideynləri yanına gedəndə, ikisi də birlikdə şəkil çəkdirmişdilər. İndi ikisi də şəhiddir. Fələyin yazdığı yazını poza bilsəydik, nə vardı ki... Elşənin gözəl səsi var idi.

Şəhid atası əlindəki telefonda olan bir musiqi parçasını səsləndirdi. Səsin məlahətindən, incəliyindən adamın ruhu riqqətə gəlirdi.

- Ay kişi, niyə bu uşağı oxumağa göndərməmisən, belə gözəl səs sahibini itirmisiniz?- deyə soruşdum. Cavab verdi:

- Əsgərliyə getməzdən qabaq, müsabiqəyə getmişdi. Dedilər ki, ustad yanına get, səsini rəvanlaşdır. Bir arzusu var idi ki, əsgərlikdən gələndən sonra, gedib musiqi dərsi, muğam dərsi alsın.

**- Daha nələr oldu? Bundan sonra neyləmək fikrindəsiniz?**

- Hələlik yığışıb kənddə bir qarış torpaq əldə edib, oturmaq fikrimiz var. Elşən qapımıza bütün dünyanın adamını axıdıb gətirdi, gərək xeyir-şəri olan adamların borclarını vermək üçün burda qalaq. Amma yaşamağa yerimiz də yoxdur. Bu gördüyün həyət də qardaşımla anamın evidir. Bizim burada heç dirriyimiz də yoxdur. Bu evdən bir çöpə də sahib deyilik. Günümüz-güzəranımız qoyun otarmaqla, xalxın mal-qarasına baxmaqla keçib. Böyük oğlum əsgər gedib qayıdıb, indi bu il üçüncü oğlum Rövşəni də əsgər aparacaqlar. Şamaxının İcra Hakimiyyətinə, kənd bələdiyyəsinə Vətən uğrunda şəhid

olan oğlumun atası kimi müraciət etmişəm ki, bir qədər torpaq ayırsınlar, ev tikib içərisinə yığışaq. Ola bilsin ki, pay torpağı sahəsi də verəcəklər. İcra Hakimiyyəti bizi ev növbəsinə də yazdı. Deyirəm bəlkə bundan sonra, balalarımı qapılardan, çadırlardan yığım. Bir də ki, Müdafiə Nazirliyi Şamaxıdan olan şəhid oğulların ulduzlarını gətirib verməyib. Onu gözləyə-gözləyə qalmışam. Şamaxı rayon İcra Hakimiyyəti "aprel döyüşləri"ndə şəhid olan üç balamızın şəhid Samir Kaçayevin, Nazim Zəkərəyevin və oğlum Elşən Səmədovun şəkillərini götürüb ki, onların başdaşlarını düzəldəcəklər. Yəqin ki, bu günlərdə şəhidlərin baş daşları da hasilə gələr. Elşənin yas mərasiminə rabitə naziri gəlmişdi. Kəndin poçtunda Rəfaili işlə təmin etdilər. İcra Hakimiyyəti o biri oğlumun da işlə təmin olunması üçün çalışır. Ölənlə ölmək olmur, buna da öyrəşəcəyik. "Elnən gələn dərd toy-bayramdır", -deyiblər. Neynək. Evimdə üç oğlum böyüyür, demirəm ki, onlar da gedib şəhid olsun, ancaq müharibəni başlasalar, onlar da gedib döyüşəcəklər. Çox istəyərəm ki, Elşənin, Nazimin, Samirin qan tökdüyü torpaqlar geri qayıtsın, bu qisas qiyamətə qalmasın.

Fizzət nənənin yenə könlü dolu idi.

Dedim, - "danış, ay nənə", - danışdı:

- Bilmirəm o ermənilər eşidər, eşitməz sözümü, ancaq mənim adımdan onlara bir deyən ola ki, çəkin o yazıq balalarınızı davadan. Qoymayın gəlib yad torpaqda ölsünlər. Keçən dəfə televizorda baxdım ki, erməni anaları qiyam edirlər. Bədbəxtlər ağlayır ki, balalarımızı əsgər aparmayın, öldürməyin. Vallah, yazığım gəldi, mən də onlara qoşulub ağladım. Erməni olanda nə olar, o da bizim kimi bala böyüdüb. İstəmərəm kimsənin zəhmətlə böyütdüyü balası ölsün. Bax, o erməni köpəy uşağı var e.... onun da kasıbının balası gedir, varlısı getmir... nə sirrdirsə, varlı balasını heç yerdə əsgər aparmırlar.

Şəhid anası Süsən məni oğlunun şəkli açılmış otağa apardı. Otaqda bu ailəyə aid heç nə yox idi. Stolun üstündəki şəkillər və divarda üstünə qırmızı xələt atılmış Elşən Səmədovun portretindən başqa. Portretin üstündəki qırmızı xələt diqqətimi çəkdi... ("xələt" – bəyin boynuna atılan atlas parçalardan, baş örtüklərindən olur) Şirvan toylarında adətən, bəy duran oğlanların, ərənlərin boynuna qırmızı xələt atırlar. Bir də ki, Elşənin balaca cib bloknotunu vərəqlədim. Orada şəhid Samir Kaçayevin telefon nömrəsi yazılmışdı. Süsən ana oğlunun şəkillərini tumarlaya-tumarlaya dedi:

- Mən hələ oğul toyu görməmişəm. Elşənə toy çaldıracaqdım, Allah qismət eləmədi. Səsi torpağa qarışdı

balamın...

Türkoloq alim Qiyasəddin Qeybullayev "Azərbaycan Türklərinin təşəkkül tarixindən" kitabında qədim mənbələrə istinad edərək yazır:

"Türk xalqları zaman etibarilə minillərlə ölçülən zəngin tarixə malikdirlər. Dünyada heç bir xalqın əcdadlarını tarixini döyüş meydanlarında yaratmış qədim türklərlə müqayisə etmək olmaz. Türklər heç vaxt tabelikdə, asılılıqda yaşamamışlar. Onların kişiləri də, qadınları da döyüş meydanlarında həmişə qəhrəmanlıq əzmilə döyüşmüşlər. Səfəvilər dövründə İran və Osmanlı qoşunları bir-birinin ardınca bu ölkəni dəfələrlə ələ keçirmişlər. Məlum olur ki, bu ölkə əhalisinin nəsli müxtəlif tayfalardan mürəkkəbdir. Buna onların hələ də mövcud olan bir çox müxtəlif abidələri, adları, dilləri, adətləri və əhalinin əxlaq və istedad dərəcəsi aydın və aşkar bir şahiddir".

Türkoloq alim Q.Qeybullayev türk oğullarının istedadından bəhs edir. Şamaxıdan şəhid olmuş o üç gənc qəhrəmanımızın çox qısa həyat yolunu vərəqləyəndə isə gördüm ki, 23 yaşlı Samir Kaçayev çox istedadlı heykəltəraş idi. Nazim Zəkərəyev sağ qalsaydı, gələcəyin gözəl şairi, söz ustası olacaqdı, Elşən Səmədovun səsində isə oxumadığı "Şirvan şikəstəsi", "Döymə Kərəmi",

“Qarabağ şikəstəsi”, “Nar ağacı”... neçə neçə muğamatlar, mahnılar qaldı.

Elşənin qısa ömrü oxumaq istədiyi mahnıların səsini özü ilə Vətən torpağına apardı. Apardı ki, gələcəkdə kimsə o torpaqdan güc alıb, oxusun, döyüş meydanlarına atılsın. Bu xalqın döyüş əzmini heç nə ilə sındırmaq olmaz. V əsrdə böyük türk sərkərdəsi Atillanın sarayına gəlmiş Roma konsulu Prisk şahidi olduğu bir maraqlı səhnənin təsvirini verir: “...nahar vaxtı Hun şairləri Atillanın qələbələrini mədh edir, döyüşçülər şənlənirdilər. Məclisdə olan qocalar isə hərbi səfərlərdə iştirak edə bilmədiklərinə görə ağlayırdılar...”.

Elşən Vətən torpağına əmanət edilərkən, dəfndə iştirak edən cavanların hayqırtılarını, əsgər salamlarını hər dəfə internet portallarından həyəcansız izləmək olmur: Əsgər sırasında olduğu kimi çağırırlar:

Səslər eşidilir:

- Samir Kaçayev !

- Burda!

- Nazim Zəkərəyev!

- Burda!

- Elşən Səmədov!

- Burda!

Kənddən çıxanda əsgər paltarında bir oğlanla rast-

laşdım. Adını yazmayacağam. Hərbi sirrdir. Elşəni soruşdum. Dedi ki, ikimiz bir ananın südünü əmmişik, süd qardaşıyıq. Soruşdum ki, müharibəyə hazırsınızmı? Cavabı belə oldu: “2-5 aprel döyüşlərində Azərbaycan Ordusu 25 illik bir səddi vurub keçdi. Orduda o gündən baş qaldıran vətənpərvərlik ruhu bu gün də davam edir. Həmin günlərdə orduda xidmət eləyən ağciyər oğlanlar da şirə-pələngə dönmüşdü. Hamımiz müharibə və mübarizə əzmində idik. Və bu gün də hər bir Azərbaycan əsgəri böyük intizar və şücaətlə torpaqlarımızı azad etmək haqqında düşünür”.

**modern.az**
**22.06.2016**

*Səsi vardı.*

*Yaxşı səsi vardı.*

*Və bu səs... Və bu səs yaddaşlarda qalıb.*

*Həmişə səslənəcək, həmişə yaşayacaq bu səs.*

*Qəhrəman oğlumuz Elşənin, şəhidlik zirvəsinə ucalmış igid soydaşımızın xatirələrdə qoyduğu iz də heç vaxt silinməyəcək.*



## Aida Eyvazlı Göytürk:

**“Bizə şərəf gətirən, qalibiyyət gətirən aprel döyüşləri, o qəhrəmanların hər biri haqqında yazmaq borcumdur...”**

– Aida xanım, necə oldu ki, aprel şəhidlərimiz haqqında yazmaq qərarına gəldiniz?

– Bir il əvvəl, həmin o aprel səhəri aldığımız xəbərdən sonra əksər insanlarımız kimi mən də təşviş içərisində idim. Bütün diqqətimi kütləvi informasiya vasitələrinə yönəltmişdim. Məlum olduğu kimi, hadisələrin miqyasını dəqiq təsəvvür edə bilmirdik. Elə həmin günlərdə millət vəkili Cavanşir Feyziyevlə görüşdüm. Elə o da şəhid ailələrinə baş çəkməyə gedirdi. Şəhidlərimizin ailə üzvləri ilə görüşüb onlar barədə yazmaq istədiyimi, yazacağım yazıların kitab şəklində çıxmasını planlaşdırdığımı bildirdim. Cavanşir müəllim kitabın çapına yardımçı olacağını söylədi.

Ertəsi gün mən Şamaxıya yollandım. Çünki Bakıya ən yaxın olan Şamaxı idi və həm də döyüşlərdə ilk şəhidlərimizdən biri də Samir Kaçayev idi. Muğam ustası Elnarə Abdullayeva ilə birlikdə Şamaxıya yola çıxdıq. İlk getdiyimiz ünvan Samir Kaçayevin evi oldu... Dəhşətli mənzərə idi. Adam yas çadırına girməyə də ehtiyat edir-

di... Nə deyəsən? Necə təsəlli verəsən... Çox ağır idi... Və həmin yarım saatlıq görüşdə Samirin doğmaları, dostları ilə söhbət etdim... Digər şəhid ailələrinə də baş çəkəndən sonra evə qayıdıb, axşam Samir Kaçayev haqqındakı xatirələri və özümün keçirdiyim ağrıları qələmə aldım....

Sonra isə kütləvi informasiya vasitələrindən bizə məlum oldu ki, heç demə, itkilərimiz daha çoxdur. Və mən necə bir ağır yükün altına girdiyimi anlamış oldum. Başqa rayonlarımıza üz tutdum... Qəbələyə gedirdim, Sahil Şirinovun evinə... Yolda qızım mənə zəng edib rəhmətlik Samir haqqındakı yazıdan çox təsirləndiyini dedi. Telefonu keçirdim və özümə söz verdim, elə həmin dəqiqə qərara aldım ki, bizə şərəf gətirən, qalibiyyət gətirən aprel döyüşləri, o qəhrəmanların hər biri haqqında yazmaq borcumdur...

**– Hansı problemlərlə qarşılaşdınız iş prosesi zamanı?**

– Daha çox dostlar, qohumlar köməyimə gəldi. Bir neçə rayona əmim oğlu Rüstəm Eyvazovun maşını ilə getdim. Sonra Tərtər zonasında yaşayan dostlarım apardılar məni Tərtərə, Bərdəyə, Ağcabədiyə... Bu işin nə qədər savab bir iş olduğunu bilənlər yol göstərirdilər, kömək edirdilər. Təbii ki, yol ağır, dərd ağır... Hər qapı-

nı döyməyə əlim gəlmirdi... Fikirləşirdim ki, tək oğlunu itirən ata-anaya nə deyim, nə soruşum onlardan... Ancaq sağ olsunlar, hər bir ailədə qonaqpərvərliklə, xüsusi diqqətlə qarşılayırdılar məni. Yalnız bir dəfə Bərdə rayonunun Mustafaağalı kəndində xoş olmayan bir situasiya yarandlı.

**– Siz bu haqda "1905.az" Diskussiya klubundakı söhbətdə danışmışdınız, xatırlayıram.**

– Doğrudu, Fuad müəllim.

**– Sizə şəhidimizin yaxınları ilə söhbətləşmək imkanı verməmişdilər gərək ki.**

– Bəli. Şəhid Səbuhi Musayevin yaxınları ilə söhbətləşməyə başlayan kimi qapı açıldı və arxadan kimsə dedi: "Səni Qəhrəman müəllim çağırır". Elə bildim ki, evin adamıdır, qadınların hansınasa deyir. Mən öz işimdəyəm. Təkrar eşitdim: "Səninlə deyiləm, Qəhrəman müəllim səni çağırır". Gördüm qadınlar mənə baxır. Geri döndüm: "Mənimləsiniz?" Cavab verdi ki, hə. Soruşdum ki, Qəhrəman kimdir? Cavab verdi ki, Qəhrəman kəndin icra nümayəndəsidir. Dedim: "O, sənin üçün qəhrəmandır, mən bura şəhid ailəsinə gəlmişəm, şəhid anası ilə söhbət edirəm". Gördüm ki, qadınlar bir-birinə

dəydi, üzlərində qorxu var.

Yekəpər bir kişi gəldi. Div boydadır, mən onun yanında cücəyə oxşayıram. Sən demə, Qəhrəmanın "şillə-vuranı"dır. Soruşdum ki, nə olub? Dedi: "Sənəd göstərin ki, haradan gəlmisiniz?" Dedim ki, mən şəhid ailəsinə başsağlığı verməyə gəlmişəm, sənəd göstərmirəm hər yerdə. Adım Aida Eyvazlıdır. Dedi: "Yox, biz icazə vermirik məclisimizdə iştirak etməyinizə. Qəhrəman müəllim deyir ki, təcili kəndi tərk eləsin".

**Doğrudan da təəccüblüdür.**

– Mən kəndi tərk eləməli oldum. Şəhidimiz haqqında yazını yazdım, hərçənd ki, o yazıda ailə üzvlərinin xatirələri yer almadı.

**– Bu olaya təəssüflənməmək olmur. Aida xanım, dərc edilmiş yazıların "hüdud"larından kənarda qalan başqa məqamlar da olub yəqin ki.**

– Bu gün internet əsrində yaşayırıq. Kiçicik hadisələrin şişirdilib böyük sensasiya kimi auditoriyaya sırınması hallarına o qədər rast gəlmişik ki. Həmin döyüşlər gedən zaman baş verənlər barədə xeyli ağlasığmaz "məlumat"lar yayılmışdı. Lakin mən gözləmə mövqeyi tutmuşdum, ancaq şəhid ailələri və şahidlərlə görüşəndən

sonra, doğruları yazırdım. Əlbəttə, elə məqamlar var ki, yazmaq olmazdı.

**– "Samir! Nazim! Elşən!" kitabına daxil edilmiş yazıların dərc edilməsindən sonra bu qəhrəmanlarımız haqqında yeni məlumatlar əldə etmisinizmi?**

"Samir!Nazim! Elşən!" kitabının ayrıca ərsəyə gəlməsinin özünün xüsusi sevinci var ürəyimdə. Müqəddəs Şamaxı torpağına genetik kodlarla bağlıyam. Bu sevinc kədərdən doğsa da, o şəhid ailələrinə verilən dəyərin ölçüsüdür. Onların hər birinin bir isti sözə ehtiyacı var. İtkilərin yerini dolduran deyilik. Ancaq bir xoş söz, xoş münasibət də böyük qüvvəyə malikdir.

Seysulan döyüşündə həlak olan şəhidlərimizin əksəriyyətinin dəftərlərində Samir Kaçayev haqqında qeydə rast gəldim... Bir çoxlarının yeni şəkillərini tapdım. Hər üç ailə ilə bu günə qədər əlaqəm var. Gediş-gəlişim var.

Öyrəndim ki, aprel ayının 1-dən 2-nə keçən gecə, erməni təxribatının qarşısı alınanda Samir Kaçayev, Vüsal və Vuqar Alıyev qardaşları böyük şücaət göstəriblər.

Rəhmətlik Samir sağlığında özü alıb qisasını. Amma, bizim digər igidlərimiz də, necə deyim, töhfələrini əsirgəməyiblər. Manqa başçısı Samir Kaçayevin qisası elə oradaca alınıb.

Elşən Səlimov həlak olanda dan yeri yenicə açılırmış. Elşən Səmədovun nəşini neytral ərazidən götürəndə, hərbçilərimiz onun baqmağının avtomatının tətiyinə bərk sıxılmış halda qaldığını görüblər.

Nazim Zəkərəyev nizam-intizamı ilə hamıdan seçilirmiş. Döyüş səngiyəndə isə yaralı əsgərlərin və şəhid olanların çıxarılması üçün döyüşçü dostlarına kömək edib, ona verilən tapşırığı yerinə yetirib...

**– Ruhları şad olsun qəhrəman oğullarımızın. İndi də planlar barədə danışaq, Aida xanım.**

– "Qalibiyyət: şahidlər və şəhidlər" kitabım da işıq üzü gördü. Orada 45 şəhidimiz haqqında yazdıqlarım və şahidlərin danışdıqları xatirələr toplanıb. Yorulmadım, bitmədim, tükənmədim. İndi kitabın ikinci hissəsini yazıram. Və yəqin ki, onu bu ilin sonuna kimi çap etdirəcəyəm. Orada indiyə qədər görüşə bilmədiyim ailələr, xüsusi qəhrəmanlıq göstərən döyüşçülərimiz haqqında yazılar olacaq.

**– Sizə uğurlar arzulayıram.**

**Fuad Babayev, 1905.az**

# 1905.az

1905.az portalı ermənilərin Azərbaycana gəlişi, onların azərbaycanlılara qarşı törətdikləri soyqırımları, deportasiyalar, Ermənistanın Azərbaycana təcavüzü haqqında internet-resursdur. Portalda mövzuya uyğun kitablar, məqalələr, müsahibələr, şahidlərin ifadələri, fotolar və digər materiallar təqdim olunur. 12 dildə (Azərbaycan, ingilis, fransız, ərəb, ispan, rus, Çin, alman, türk, fars, gürcü və erməni dillərində) fəaliyyət göstərən resurs daim inkişaf edir: materiallar işlənir, yeni məqalə və informasiyalar əlavə olunur.


1905.az
AQİL ŞAHMURADOV
ERMƏNİLƏR
CƏNUBİ QAFQAZDA
(məskunlaşma tarixindən)
1905.az
АГИЛЬ ШАХМУРАДОВ
АРМЯНЕ
НА ЮЖНОМ КАВКАЗЕ
(из истории заселения)
AGIL SHAHMURADOV
ARMENIANS
IN THE SOUTHERN CAUCASUS
(history of settlement)

*Tarix üzrə fəlsəfə doktoru, dosent, "1905.az" portalının icmalçısı Aqil Şahmuradovun Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş "Ermənilər Cənubi Qafqazda (məskunlaşma tarixindən)" kitabında ermənilərin mənşəyi, miqrasiya prosesləri nəticəsində onların Balkanlardan Anadolunun şərqinə gəlmələri, Rusiya imperiyasının yardımı ilə Cənubi Qafqazda məskunlaşmaları, yerli xalqların mədəniyyəti və tarixini mənimsəmək məqsədilə etdikləri saxtakarlıqlarla bağlı məsələlər öz əksini tapıb.*

*Kitab tədqiqatçılar, müəllim və tələbələr, Cənubi Qafqazın etnik tarixi ilə maraqlanan oxucular üçün nəzərdə tutulub.*

# XOCALI

## YADDAŞI



Association for Civil Society Development in Azerbaijan
Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyası

1905.az

*“Xocalı yaddaşı” kitabı Azərbaycanda Vətəndaş Cəmiyyətinin İnkişafına Yardım Assosiasiyasının “1905.az kitabı” seriyasından ikinci nəşridir. Bu kitab 25 il öncə, erməni silahlı birləşmələri tərəfindən törədilmiş Xocalı soyqırımı qurbanlarının xatirəsinə ithaf olunub.*

*Nəşrdə şərti olaraq soyqırıma qədərki, soyqırım və sonrakı dövr haqqında publisistik məqalə və məlumat-soraq materialları, Xocalıda şücaət göstərmiş Milli Qəhrəmanların qısa həyat yolu, “Xocalıya ədalət” beynəlxalq maarifləndirmə kampaniyasının fəaliyyəti, Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin soyqırımla bağlı çıxış və müraciətləri, rəsmi sənədlər yer alıb. Bundan başqa, hadisələr bütün kitab boyu müstəqil məna yükü daşıyan fotoxronikanın vasitəsilə oxuculara təqdim edilir.*

*Kitabda tədqiqatçı, alim, ekspert və şahidlərin dili ilə faciənin tarixinə, baş vermə səbəblərinə, ədəbiyyatda, incəsənətdə və beynəlxalq hüquqda inikasına müxtəlif aspektlərdən aydınlıq gətirilir.*

## Şamaxı ensiklopediyası

*"Şamaxı ensiklopediyası" (www.shamakhi-encyclopedia.az) Şamaxının millət vəkili Elxan Süleymanovun ideyasıdır və onun dəstəyi ilə yaradılıb. Ensiklopediya geniş oxucu dairəsi – tarixçilər, tələbələr, məktəblilər, bir sözlə, qədim Şamaxının tarixi və bu günü ilə maraqlanan hər kəs üçün nəzərdə tutulub.*

*Ensiklopediyaya 900-dən artıq məqalə, 6 irihəcmli oçerk, 1000-dək rəngli və ağ-qara fotoşəkil, 20 xəritə daxil edilib.*

*Ensiklopediyada Şamaxının tarixi, tarixi-memarlıq abidələri, yaşayış məntəqələri, məhəllələri, mühüm fiziki-coğrafi obyektləri, fauna və florası və s. haqqında məqalələr daxil edilib. Ensiklopediyanın digər vacib hissəsi Şamaxının tarixi ilə bilavasitə bağlı olan insanlar haqqında məqalələrdir. Burada şirvanşahlar, dövlət xadimləri, alim və mütəfəkkirlər, Şamaxı tarixini öyrənmiş tədqiqatçılar haqqında məqalələr yer alıb.*

*Ensiklopediyanın yaradıcı qrupu şamaxılı alimlərin, bölgəni tədqiq edən araşdırmaçıların, eləcə də müxtəlif ədəbiyyat, ensiklopediya, məlumat-soraq kitablarından bəhrələnib.*

*"Şamaxı ensiklopediyası" daimi olaraq materiallarla zənginləşdirilir.*

Aida Eyvazlı Göytürk
SAMİR! NAZİM! ELŞƏN!

**Məsul redaktor**
Gündüz Nəsibov
**Bədii redaktor**
Mətanət Babayeva
**Texniki redaktorlar**
Təmkin Məmmədli
Dadaş Musayev
**Dizayn və səhifələnmə**
Elviz İsmayilov

Çapa imzalanıb: 29.03.2017
Format:
Həcmi:1,25 ş.ç.v
Sifariş: № 180

CBS POLYGRAPHIC PRODUCTION
Tel:447-75-05 Faks: 447-75-04

mətbəəsində çap olunub

1905.az
kitabı



Aida Eyvazlı Göytürk

Sumqayıtda anadan olub.
Mirzə Uluqbəy adına Özbəkistan Milli Universitetinin jurnalistika fakültəsini bitirib.
1990-cı ildən mediadadır. “168 saat” və “Panorama” qəzetlərində, “Space” kanalında çalışıb. 2004-cü ildən 2013-cü ilə qədər Mərkəzi Asiya respublikalarında, eləcə də Qazaxıstanda əvvəlcə “Lider” Müstəqil Teleşirkətini, sonra isə Azərbaycan Dövlət Televiziyasını təmsil edib.
Azərbaycan Jurnalistlər Birliyinin “Həsən bəy Zərdabi” mükafatının və Mətbuat Şurasının Ali Media Mükafatının 3-cü dərəcəsi üzrə laureatıdır.

www.1905.az